Ədəbiyyat qəzeti



# Azərbaycan və Türkiyə Prezidentləri Şuşada

İyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşa şəhərinə yola düşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Füzuli rayonunda qarşıladı.

Prezident İlham Əliyev: Əziz qardaşım, Qarabağ torpağına xoş gəlmisiniz.

Prezident Rəcəb Tayyib Ərdoğan: Xoş gördük. Ancaq Qarabağ torpaqlarını yaxıb-yıxıblar.

Prezident İlham Əliyev: İndi daha da görəcəksiniz. Gördünüz də?

Prezident Rəcəb Tayyib Ərdoğan: Gördük.

Prezident İlham Əliyev: Əminə xanım, xoş gəlmisiniz.

Əminə Ərdoğan: Xoş gördük.

Prezident İlham Əliyev: Bura Füzuli bölgəsidir, yəni, Aşağı Qarabağ bölgəsidir. Bakıdan gələndə birinci Qarabağ bölgəsi Füzulidir.

Prezident Rəcəb Tayyib Ərdoğan: Burada yol tikintisi layihələri var.

Prezident İlham Əliyev: Bəli, başladıq. Bu da artıq Qarabağ dağlarıdır, meşələrdir.

* * *

Sonra dövlət başçıları Şuşa şəhərinə yola düşdülər.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yolüstü Şuşa şəhərinin ətraf ərazilərini seyr etdilər.

* * *

Prezident İlham Əliyev: Buradan Şuşanın yerini göstərim.

Prezident Rəcəb Tayyib Ərdoğan: Göstər, baxaq.

Prezident İlham Əliyev: Bax, oradır, o qayanın başı, soldan sağa qədər. O da kənddir, Şuşanın altında, bu kəndin adı Daşaltıdır.

Prezident Rəcəb Tayyib Ərdoğan: Daşaltı, daş orada, o da altı.

Prezident İlham Əliyev: Daşaltı, yəni, daşın altı.

Əminə Ərdoğan: Şuşa onun arxasındadır?

Prezident İlham Əliyev: Şuşa düz onun üstündədir.

Əminə Ərdoğan: Düzənliyin üstündə?

Prezident İlham Əliyev: Bəli, o düzənliyin üstündə. Sağdakı o dağ çıxıntısı Cıdır düzüdür. At yarışları keçirilən məşhur Cıdır düzü. Biz də gedib oraya baxacağıq.

Burada xatirə şəkilləri çəkdirildi.

Şuşada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi oldu.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və birinci xanım Əminə Ərdoğanı qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkiyə Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

Həmin gün Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalanıb.

Şuşa Bəyannaməsini Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.